Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Səhnəmizin unuldulmaz Leylisi və Ərəbzəngisi

**Azərbaycanın görkəmli opera müğənnisi, Azərbaycan SSRİ xalq artisti Gülxar Həsənovanın 100 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2018**

**Tərtibçilər:** **Könül Səmədzadə**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Səhnəmizin unudulmaz Leylisi və Ərəbzəngisi:** Gülxar Həsənovanın 100 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait /Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad. Respublika Uşaq Kitabxanası ; tərt.ed. K. Səmədzadə ; ixt.red. və burax.məsul Ş. Qəmbərova ; red. K. Ağazadə. - Bakı : F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2018. - 14 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2018**

# Gülxar Həsənovanın 100 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2018-ci ilin dekabr ayında Azərbaycanın görkəmli opera müğənnisi, xalq artisti Gülxar İbrahim qızı Həsənovanın anadan olmasının 100 illiyi tamam olur. Gülxar Həsənova Azərbaycan operasının şah əsərlərində təbiiliyi, dolğunluğu və özünəməxsusluğu ilə seçilən çox sayda unudulmaz obrazlar yaratmış, uzun illər ərzində aparıcı partiyalardakı yaddaqalan çıxışları ilə ifaçılıq sənəti tariximizə yeni səhifələr yazmışdır. Gənc opera solistlərinin hazırlanmasında onun təqdirəlayiq xidmətləri vardır. Yüksək səhnə mədəniyyətinə malik sənətkar muğam, təsnif və xalq mahnılarının mahir ifaçısı kimi musiqisevərlərin qəlbində dərin izlər buraxmışdır. Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan opera sənətinin inkişafına dəyərli töhfələr vermiş görkəmli müğənni Gülxar Həsənovanın 100 illiyinin qeyd olunmasını təmin etmək məqsədi ilə qərara alıram:

**1.** Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi xalq artisti Gülxar Həsənovanın 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev,**

**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 15 avqust 2018-ci il**

# I Bölmə
# Həyat və yaradıcılığı

Hər bir sənətkar özünəməxsus cəhətləri ilə yaddaşlarda qalır. Bu mənada görkəmli opera müğənnisi, aktrisa Gülxar Həsənovanı da unudulmaz edən məlahətli səsi və bənzərsiz sənətkarlığı idi.

Gülxar İbrahim qızı Həsənova 1918-ci il dekabrın 10-da Şəmkir rayonunun Bayramlı kəndində anadan olub. Səhnə fəaliyyətinə gənc yaşlarından başlayıb. 1936-1942-ci illərdə Gənc Tamaşaçılar Teatrının solisti olub. Səhnədə yaratdığı obrazlarla diqqəti cəlb edən Gülxar Həsənova dahi Üzeyir bəyin də gözündən yayınmayıb. Tamaşaların birində gənc aktrisanın çıxışını diqqətlə izləyən Üzeyir bəy onun məlahətli səsini yüksək qiymətləndirərək Opera və Balet Teatrında çalışmasını tövsiyə etmişdir. Beləliklə, Gülxar Həsənovanın sonrakı səhnə fəaliyyəti Opera və Balet Teatrında davam etdirmişdir. 1983-cü ildən teatrda məşqçi-pedaqoq kimi işləyib.

Müğənni bu teatrda milli opera sənətinin inkişafına mühüm töhfələr verib. Bütün milli operalarımızda əsas rollarda çıxış edib. Onlardan Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasında Leyli və sonralar Leylinin anası, "Əsli və Kərim"də Əsli, "Koroğlu"da xanəndə qız, Zülfüqar Hacıbəyovun "Aşıq Qərib" operasında Şahsənəm, Müslüm Maqamayevin "Şah İsmayıl" operasında Ərəbzəngi, Süleyman Ələsgərovun "Bahadır və Sona" operasında Təravət xanım, Şəfiqə Axundovanın "Gəlin qayası"nda Ana və digər obrazların səhnə həyatında Gülxar Həsənovanın öz möhürü, öz tərzi var. O, bu obrazların hamısını sevə-sevə yaradıb. Amma iki obraz Leyli və Ərəbzəngi onun yaradıcılığında xüsusi yer tutur. Bunu Gülxar xanım özü də etiraf edirdi.

2000-ci ildə Azərbaycan radiosunda "muğam dünyamız" adlı proqramda Gülxar xanım həyat və yaradıcılığı barədə bəzi xatirələrini bölüşmüşdü. Həmin xatirələrdən bir qismini sizə çatdırmaq istərdik. "1941- 1945-ci illərin müharibə dövrü sənətçilər üçün də ağır, məşəqqətli zaman idi. Tez-tez cəbhə bölgələrində olurduq. Çalışırdıq ki, əsgər oğullarımıza mənəvi dayaq olaq. Bu çıxışların əsas təşəbbüsçüsü Üzeyir bəy idi. O, bizim vətənpərvərlik ruhumuzu daha da artırırdı. Üzeyir bəy elə şərait yaratmışdı ki, səhnə də bizim üçün bir cəbhəyə çevrilmişdi. Yadımdadır ki, 1943-cü il idi. Mən Əlövsət Sadıqovla "Leyli və Məcnun" operasını oynamalı idim tamaşadan əvvəl acı bir xəbər eşitdim. Cəbhədən qardaşımın qara kağızı gəlmişdi. Mənimlə bərabər bütün yoldaşlarım da sarsıldılar. Onlar elə bildilər ki, tamaşa təxirə düşəcək. Amma yox, elə olmadı. Mən özümdə güc toplayıb həmin gün tamaşanı oynadım. Bəlkə, əvvəlkilərdən daha da yaxşı. Çünki mənim həyatdakı acılarım Leylinin kədərli taleyi ilə üst-üstə düşürdü. Bu qəm-kədər yaxınlığı məni Leyli obrazı ilə daha da doğmalaşdırırdı. O, illərdə tez-tez Ərəbzəngi rolunda da çıxış edirdim. Yaşadığım mübarizə hissini, düşmənə qalib gəlmək arzusunu sanki bu obrazın vasitəsilə ifadə etməyə çalışırdım. Ərəbzəngi öz qəhrəmanlıq çalarları ilə tam mənim düşüncələrimlə səsləşirdi. Odur ki, bu iki obraz mənə çox doğmadır. Əslində isə mənə daha doğma olan səhnədir ki, məhz orada öz hiss və həyəcanımı, düşüncələrimi, bir sözlə yaşantılarımı yaşamışam".

Bəli, nə yaxşı ki, belə mənbələr var ki, onlar sənətkarlarımızı xatırlamaqda bizə bələdçi olurlar. Bax, beləcə böyük sənət eşqi ilə yaşayan Gülxar Həsənova soprano səs tembri ilə parlaq koloritli obrazlar yaratdı, muğam, xalq mahnı və təsniflərimizi xüsusi gözəlliklə ifa edərək onların da əbədiyaşarlığında mühüm rol oynadı. Gülxar Həsənova bu cəhətləri ilə öz üslubunu

yaradaraq səhnəyə yeni qədəm qoyan neçə-neçə gənclərə də yol göstərib, onlardan öz bilik və bacarığını əsirgəmədi. Uzun illər Gülxar xanımla tərəf-müqabil olmuş Xalq artisti Canəli Əkbərovun dediklərindən: “Sənətkar üçün vacib olan bir neçə amil var. Bunlardan ən başlıcası istedad, məsuliyyət və zəhmətdir. Bu keyfiyyətlər də Gülxar xanımda üstünlük təşkil edirdi. Odur ki, o, nümunəvi bir sənətkar idi. Xoşbəxtəm ki, belə sənətkarla bir yerdə çalışmaq mənə nəsib olub. M. Maqamayevin “Şah İsmayıl” operasında mən Şah İsmayıl, o isə Ərəbzəngi rolunda çıxış etmişik. Gülxar xanım bu obrazı o qədər canlı oynayırdı ki, bəzən mən səhnədə olduğumu unudub onun sənətinin sehrinə dalaraq az qala tamaşaçıya çevrilirdim. Bu obraz ona çox yaraşırdı. Unudulmaz sənətkarımız Həqiqət Rzayevadan sonra Ərəbzəngi obrazının ən mahir ifaçısı məhz

O, sənəti sağlığında Xalq artisti (1982) fəxri adına layiq görülüb. 2005-ci il 30 mart da dünyasını dəyişən Gülxar Həsənovanı əbədi yaşadan isə ona olan böyük xalq məhəbbətidir.

## II Bölmə
## Kitabxanada yubiley tədbirlərinin keçirilməsi

Səhnəmizdə özünəməxsus, yaddaqalan silsilə obrazlar yaratmış Azərbaycan SSRİ Xalq artisti Gülxar Həsənovanın bu il 100 illik yubileyi qeyd olunur. Bu münasibətlə respublikamızın hər bir təhsil ocaqlarında, məktəb, lisey, gimnaziya və kitabxanalarda, musiqi məktəblərində yubiley tədbirlərinin keçirilməsi nəzərdə tutulmuşdur. Yubiley tədbirlərinin keçirilməsi ilə bağlı bir sıra tədbirlər planı hazırlanmışdır. Belə tədbirlərin keçirilməsi F. Köçərli adına Respublika Uşaq Kitabxanasında da nəzərdə tutulmuşdur.

Xalq artisti Gülxar Həsənovanın 100 illik yubileyi ilə bağlı F. Köçərli adına Respublika Uşaq Kitabxanasının oxu zalında sərgi təşkil olunur. Sərgiyə müxtəlif başlıqlar verilir. Məsələn: "Gülxar Həsənova – 100", "Sənət naminə fədakar", "Səhnəmizin ərəbzəngisi", "Ərəbzənginin bənzərsiz ifaçısı", "Unudulmaz səs ifaçısı – Gülxar Həsənova", "Yaddaşlardan silinməyən – Gülxar Həsənova" və s.

**"Sənət naminə fədakar" adlı sərginin nümunəsini veririk:**

1. **Başlıq: "Sənət naminə fədakar"**
2. **Gülxar Həsənova haqqında kitablar;**
3. **Görkəmli şəxslər Gülxar Həsənova haqqında;**
4. **Tamaşalardan səhnələr.**

## Görkəmli şəxslər Gülxar Həsənova haqqında

Onun bütün keyfiyyətləri gözəl və səmimi idi. Xüsusən də sənət dostlarından bilik və bacarığını əsirgəməzdi. Gülxar Həsənova lazım gəldikdə gənc ifaçılarla hətta evində məşğul olurdu. Bunu sənətimizin inkişafı naminə edirdi. Odur ki, Gülxar Həsənova bu gün yaddaşlarda mahir bir sənətkar və gözəl insan kimi qalıb.

**Canəli Əkbərov,**
*Xalq artisti*

Səhnədə qılıncını sıyırıb "Ehey..." deyən Ərəbzəngi – Gülxar Həsənova həyatda Ərəbzəngi ola bilmədi. Amma səhnədəki Ərəbzəngisi, Leylisi, Əslisi, Şahsənəmi ilə yaddaşlardan silinmədi...

**Vaqif Yusifli,**
*Filologiya elmləri doktoru,*

Bəli, Gülxar Həsənova daim xatırlanacaq. Çünki onun sənəti bugünkü nəsil üçün də bir örnəkdir. O, öz səsi və ifaçılıq xüsusiyyətləri ilə həm zamanında, həm də bu gün qiymətlidir.

**Səadət Təhmirazqızı,**
*Musiqişünas*

Gülxar Həsənovanın dünyaya gəldiyi, böyüdüyü, qızlar bulağından su içdiyi çağlarda ucaboy, yaraşıqlı, şirindilli növrəstələr üçün "əsl səhnə görkəmi var" demirdilər. Eləcə deyirdilər ki, bir evin yaraşığı, dosta qismət olmalı qızdır...

**Gülcahan Mirməmməd,**
*jurnalist*

***“Unudulmaz səs ifaçısı – Gülxar Həsənova”** adlı tədbir açıq elan olunur.* Əvvəlcə, Gülxar Həsənovanın həyat və yaradıcılığından bəhs edən videoçarx nümayiş olunur. Sonra aparıcılar səhnəyə daxil olurlar.

**I aparıcı:** Bu gün biz uca boylu, səhnədə yaraşıqlı və gözəl görünən qədd-qaməti, soprano səsinin sanki nəhayətsiz zəngulələri ilə opera solistləri sırasında layiqli yer tutan Gülxar Həsənovadan danışacağıq. Gülxar Həsənova təbii və realist-romantik səciyyəli aktyorluq istedadı ifa etdiyi partiyaların dramatik xarakterini daha təravətli və təbii canlandırmağa zəmin yaradan sənətkarlardan idi.

Gülxar İbrahim qızı Həsənova (Sultanova) Şəmkir rayonunun Bayramlı kəndində doğulub. Oxumağa məktəb yaşlarından başlayıb. Bakı Tibb Məktəbində (1934) təhsil alıb və oranın dram dərnəyində çalışıb. Bakı Teatr Məktəbində aktrisa ixtisasına yiyələnib (1936-1939). Bir müddət GTT-da aktirisalıq edib. Tamaşalarda müğənnilik məharətini nümayiş etdirən aktirisa 1942-ci ildə ADOBT-yə dəvət alıb. Uzun illər teatrın solisti olan sənətkar 1980-ci ildən kollektivin opera truppasında məşqçi-pedaqoq işləyib. O, deyirdi: “Opera mənim evimdir, desəm azdır. Dünyada ikinci bir ömrü yaşamaqdan və tamaşaçıları sevindirməkdən, onların həyat yolunu işıqlandırmaqdan böyük xoşbəxtlik ola bilməz. Neçə-neçə ömürləri yaşaya-yaşaya tamaşaçı alqışı qazanmaq xoşbəxtlikdir”.

Gülxar Həsnova müxtəlif rejissorların üslub baxımından ayrı-ayrı quruluşlarında “Leyli və Məcnun” (Leyli və Leylinin anası), “Əsli və Kərəm” (Əsli), “Koroğlu” (Xanəndə qız), “Aşıq Qərib” (Şahsənəm), “Şah İsmayıl” (Ərəb Zəngi), “Bahadır və Sona” (Təravət xanım), “Azad” (İranlı qız), “Gəlin qayası” (Camalın anası) operalarında, “Arşın mal alan” (Gülçöhrə, Telli və Cahan xala), “Durna” (Lalə) operettalarında çıxış edib.

Gülxar xanımın Əslisindən, Leylisindən, Ərəbzəngisindən, çox yazıblar, özünün də bu haqda xeyli xatirəsi var. Dramatik aktrisalıq stajı opera teatrında faciə obrazlarını yaradarkən da köməyinə çatıb. Hətta uzun illər onun nə vaxtsa dramatik teatrda rollar oynadığı da yaddan çıxıb. Odur ki, ilk nümayişindən böyük tamaşaçı kütləsi toplayan, bu gün də sevə-sevə baxılan “Yollar görüşəndə” (1979) məzəli teletamaşasında Hökumə xanım rolunda Gülxar xanımı görəndə təəccüblənənlər də oldu. Düzdür, 1976-ci ildə Həsən Seyidbəyli “Xoşbəxtlik qayğıları” filmində elçilik səhnəsində Gülxar xanımın xoş təbəssümlü simasını, sözsüz də olsa, ekrana gətirmişdi. Amma bir dinməz epizod diqqətdən qaçsa da, ömrünü balalarına həsr etmiş, övladlarını yersiz ittihamlardan qorumağı bacaran Hökumə xanım obrazı artıq xanəndəlik karyerasının qürubuna yaxınlaşan Gülxar xanımı yenidən aktrisa kimi tanıtdırdı.

**II aparıcı:** Gülxar Həsənova əsl ustad kimi cavanlardan qayğını əsirgəmirdi. Operada Simuzər Hətəmovanın, Zeynəb Xanlarovanın, Rübabə Muradovanın, Nəzakət Məmmədovanın, Adilə Pirkukun, Rəsmiyyə Sadıqovanın, Qəndab Quliyevanın, Səkinə İsmayılovanın Leyli kimi parlamalarında onun da əməyi çox olmuşdu.

Gülxar Həsənova teatra ilk gəlişindən belə danışır: “Əslində kənddən gələndə niyyətim həkim olmaq idi. 1936-cı ildə tibb texnikumunu əla bitirsəm də, arzuma çata bilmədim. Hələ tibb texnikumunda oxuyan zaman Əli Bayramov klubunda nəfəsli orkestrdə bariton çalırdım. İndi istehza doğursa da, o vaxt nümayişlərdə çaldığımız marş bizi yamanca məşhurlaşdırmışdı”.

Müharibə illərində müğənninin üç qardaşı Həmid, Nazim, Səlim Sultanovlar müxtəlif cəbhələrdə döyüşürdülər. Əvvəl Həmid getdi. Həmiddən Gülxara gələn ilk məktub, onun birici və sonuncu məktubu oldu. Sonra Nazim, daha sonra isə Səlim

cəbhəyə yollandı. Nazim şair idi, gözəl şeirləri vardı. Gülxar hərbi xəstəxanalarda, cəbhədə döyüşən əsgərlər qarşısında konsertlər verəndə oxuduğu mahnılarda qardaşlarını da yad edirdi. O, qardaşı Nazimin bir şeirini tez-tez oxuyurdu.

*Toxunsa yurduma duyğusuz bir əl,*
*İnan ki, bir qana, min qan eylərəm.*
*Sözlərim cəbhədə qatarlaşanda*
*Qəlbimi onlara sarvan eylərəm.*

Nazim topçu batereyasının komandiri idi. "Müharibə qurbansız olmaz" deyiblər. Stalinqrad uğrunda gedən döyüşlərin birində mərdliklə vuruşan Nazimin zərif duyğularla döyünən qəlbi əbədi susdu. Gülxar qardaşının "qara kağız"ını alanda son dərəcə sarsıldı. Ancaq nə etmək olardı, kədərlə sevinc əkiz doğulmuşdu deyiblər...

Bəli, o gecə Gülxar xanım göz yaşlarına boğularaq Leylini oynayıb. Müğənni Leylini o qədər gözəl, o qədər təsirli oynayıb, oxuyub ki, həmin tamaşada iştirak edənlər Gülxarın o gecəki Leylisini indi də xatırlayırlar. Lakin tamaşaçıların heç ağlına da gəlməzdi ki, o, doğma qardaşının ölüm xəbərini onlardan gizlədib, düşmənin, ölümün acığına səhnəyə atılıb.

*Bacılar qardaşla öyünər hər an,*
*Qardaşsız bacının ömrü bir qışdır.*
*Üç igid qardaşım vardı bir zaman,*
*Üçü də cəbhədən qayıtmamışdır.*

Bu şeir parçası Gülxar xanımın könül dünyasından qopub düşən yarpaqlardır. Axı onun şairliyi də vardı. Sözü duymaq, musiqiyə hopdurmaq bacarığı sənətkardan xüsusi istedad tələb edir. Gülxar xanım sözün qiymətini, qədrini bilən müğənni-aktyorlarımızdan idi.

*İncəsənət Universitetinin tələbələri Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" əsərindən Leylinin anası hissəsini ifa edirlər.*

Gülxar xanımın yeganə övladı, sonralar həm dramatik, həm də komik rolların öhdəsindən məharətlə gələcək görkəmli aktyor Hamlet Qurbanovla arasında yaş fərqi böyük deyildi. Cəmi 20 yaş. Hamlet körpə olanda isə gözəl Gülxar müharibəyə getmiş üç qardaşını bir-birinin ardınca itirib. Beləcə, bacı məhəbbətini də analıq sevgisinin gözünə qatıb. Demə, qismətində təkcə oğlunun sənət uğurlarına sevinmək yoxmuş... Balasının gözünün qarşısında şam kimi əridiyini görmək, onun çarəsiz xəstəliyi qarşısında təbabətin acizliyini qəbul etmək də qismətdənmiş. 1995-ci ildə Hamlet Qurbanov 57 yaşında amansız xəstəlik üzündən dünyasını dəyişdi. Hamletdən sonra Gülxar xanım on il yaşadı. Əgər buna yaşamaq dəmək olardısa... Xəstəlik, oğul itkisinin xiffəti onu nə oxumağa qoyurdu, nə də tamaşalara gəlməyə qoyurdu. Bəli, beləcə Gülxar xanım gündən-günə bədbinləşir, oğul həsrəti üzündən çöhrəsi solurdu.

Yubiley tədbirlərin sonunda onu da qeyd etmək yerinə düşərdi ki, Gülxar Həsənovanın 100 illik yubileyi ərəfəsində onun yeganə övladı, bənzərsiz aktyor, amansız xəstəliyin vaxtsız apardığı Hamlet Qurbanovun 80 illik yubileyi qeyd olunması maraqlı təsadüf oldu. Tədbirdə Hamlet Qurbanovun həyat və yaradıcılığını əks etdirən yubiley sərgisi də təşkil etmək tamaşaçılar tərəfindən maraqla qarşılanar.

Dekabr ayının 10-da ölkə prezidenti İlham Əliyevin sərəncamı ilə dövlət səviyyəsində Gülxar Həsənovanın 100 illik yubiley gecəsi bir zamanlar onun ifasına alqışların qopduğu filarmoniyada keçiriləcək. Azərbaycan xalqı yüz il keçsə belə, bu gözəl sənətkarı ehtiramla xatırlayır və gələcək nəsillər bu sənət məktəbindən hələ çox faydalanacaqdır. Tədbirin sonunda Gülxar Həsənovanın ifalarından ibarət videomateriallar nümayiş olunur.

**S O N**

## Ədəbiyyat sıyahısı

**Gülxar Həsənovanın 100** illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (15 avqust 2018-ci il) // Xalq qəzeti. - 2018. - 16 avqust. - № 182. - S. 1.

**Kitablarda**

Gülxar Həsənova// Çəmənli M. "Leyli və Məcnun" 100 il səhnədə;-Bakı-2008.-S 170-172.

Gülxar Həsənova// Rəhimli İ. Azərbaycan teatrı Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı:[Azərbaycan teatrı]-Bakı: Nağıl evi, 2008.-S. 166-167.

**Dövri mətbuatda**

**Bayramova Z.** Səhnəmizin Ərəbzəngisi : dövlət başçısının Sərəncamı ilə opera sənətinin inkişafına dəyərli töhfələr vermiş görkəmli müğənni Gülxar Həsənovanın 100 illik yubileyi qeyd olunacaq // Səs. - 2018. - 17 avqust. - № 155. - S. 10.

**Əhmədalılar T.** Həmişəyaşar Leyli-Gülxar... : Gülxar Həsənova - 95 // Mədəniyyət. - 2013. - 11 dekabr. - № 89. - S. 11.

**Mükərrəmoğlu M.** Ərəbzənginin bənzərsiz ifaçısı : Gülxar Həsənova - 100 // Xalq qəzeti. - 2018. - 19 avqust. - № 185. - S. 7.

**Salmanlı R.** Səhnəmizin Ərəbzəngisi : Gülxar Həsənova - 100 // Azərbaycan : qəzet. - 2018. - 4 dekabr. - № 273. - S. 6.

**Yusifli V.** Səhnədə 540 dəfə Ərəbzəngini oynadı, həyatda Ərəbzəngi ola bilmədi : [aktrisa Gülxar Həsənovanın həyat və yaradıcılığı haqqında] // Kaspi. - 2016. - 5 fevral. - № 19. - S. 12.

# Səhnəmizin unuldulmaz Leylisi və Ərəbzəngisi

(metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 58
Çapa imzalanmışdır: 10.12.2018
Tirajı:100
Pulsuz